# HEYDƏR ƏLİYEVİN

## Akademik İsa Həbibbəylinin tədqiqatlarında



**Salatın ƏHMƏDLİ,**
**dosent**

*(Əvvəli ötən sayımızda)*

Azərbaycan real olaraq parçalanmaq təhlükəsi qarşısında qalmışdı və artıq Talış Muğan Respublikası özünü elan etmişdi. Əsgəri xidmətdə də olmamış mülki şəxs tərəfindən idarə edilən ordu dövlətin deyil, hərəsi bir xarici dövlətə xidmət edən ayrı-ayrı siyasi qüvvələrin əlində cəmləşmişdi. İqtisadi böhran çox dərinləşmişdi, çörək növbələri ölkənin hər yerində adi hala çevrilmişdi. Xaricə ziyalı axını da genişlənirdi”.

AXCP Müsavat liderlərinin populist çıxışlarının, boş vədlərinin xalq tərəfindən qəbul olunmadığını, Azərbaycanı kiçik dövlətlərə parçalanmış Yuqoslaviyanın taleyi gözlədiyini, geniş neft-qaz ehtiyatlarına malik olan bir ölkəmiz olduğunu da nəzərə alsaq, “onda Azərbaycana yönəldilmiş parçalanma siyasətinin xarici qüvvələrin maraqlarına daha çox uyğun gəldiyini” söyləyir. Ölkənin bütün sahələrini bürüyən böhranın dərinləşdiyini, qurtuluş zərurətinin Azərbaycanda qaçılmaz kəskin bir problem kimi gündəmə gəldiyini, belə məsuliyyətli bir tarixi məqamda ölkəni və xalqı yaranmış “dərin və genişmiqyaslı böhrandan xilas etmək vəzifəsini” üzərinə götürmək çox çətin və ağır bir iş olsa da, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev “tarixin bu cür məsuliyyətli məqamında ölkənin və dövlətin milli qurtuluşu vəzifəsini yerinə yetirmək, həyata keçirmək zərurəti ilə üz-üzə” qaldığını, “böyük dövlətçilik təcrübəsinə, yüksək liderlik qabiliyyətinə malik olan bu qüdrətli dövlət xadiminin yenidən siyasi cəbhəyə qayıdışını” təkcə xalq deyil, həm də zaman tələb etdiyini, zəngin siyasi təcrübəyə malik Heydər Əliyevin Azərbaycan xalqı qarşısında “həmin məsuliyyətli tarixi vəzifəni” öz üzərinə götürdüyünü, “böyük xilaskarlıq missiyasını dönmədən, qətiyyətlə” həyata keçirdiyini bildirir.

Heydər Əlirza oğlu Əliyevin keçmiş Sovetlər İttifaqında tanınmış ictimai xadim, “dünyanın ən böyük iki dövlətindən birinin əsas rəhbərlərinin sırasında öndə” dayanması, dünya ictimaiyyətinin “təcrübəli siyasi xadim və böyük dövlət rəhbəri kimi” qəbul etməsi, “beynəlxalq aləmdə geniş nüfuz sahibi” olması, XX əsrin görkəmli dövlət xadimlərindən biri kimi böyük” şöhrət qazanmasını diqqətə çatdıran İsa Həbibbəyli Müstəqil Azərbaycanı “Heydər Əliyevin şah əsəri” bilir: “Bu möhtəşəm əsərin möhkəm əsaslarını o, hələ keçmiş sovet hakimiyyəti illərində formalaşdırmışdı. Zəngin dövlətçilik təcrübəsi və geniş milli dünyagörüşə malik dövlət xadimi olması, cəsarətli ideyaları, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörənliyi hələ Azərbaycan Respublikasına rəhbərliyinin birinci dövründə Heydər Əliyevin siyasi liderlik istedadını Azərbaycan cəmiyyətinə və dünyaya təqdim etmişdi. Heydər Əliyev xalqımızın çoxəsrlik tarixində Azərbaycan adlı dövlət yaratmış nadir siyasi şəxsiyyətdir”.

Onun rəhbərliyi ilə az müddətdə ölkəmizin Sovetlər İttifaqının inkişaf etmiş respublikalarından birinə çevrildiyini, xalqın onu tanıdığını, buna görə də XX əsrin 90-cı illərinin əvvəllərində mürəkkəb və gərgin ictimai-siyasi şəraitdə onu “qüdrətli xilaskar kimi” siyasi mühitin ön mövqeyinə çəkdiyini vurğulayır.

Akademik İsa Həbibbəyli Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrü araşdırır. 03 sentyabr 1991, 14 iyun 1993-cü illərin mühim əhəmiyyətə malik olduğunu qeyd edir. Onun bu dövrdə “çoxcəhətli yorulmaz fəaliyyəti ilə Azərbaycan dövlətçiliyinin Naxçıvan məktəbini” yaratdığını, Naxçıvan Muxtar Respublikasında yaşadığı və Ali Məclisin Sədri vəzifəsində çalışdığı illərdə Naxçıvanın ölkəmizdə müstəqil “dövlətçiliyin böyük laboratoriyası funksiyasını” həyata keçirdiyini qeyd edir. Sovet dövlətinin mövcud olduğu son illərdə və Azərbaycanda dövlət müstəqilliyi elan olunmamış 17 noyabr 1990-cı ildə üçrəngli Azərbaycan bayrağının dövlət rəmzi kimi qəbul edilməsi səviyyəsində nadir hadisə məhz cəsarətli və uzaq görən dövlət xadimi Heydər Əliyev tərəfindən Naxçıvanda həyata keçirildiyini yazır: “Dünyada hələ ki, bundan başqa müstəqil dövlətlər yaranmamış onun milli bayrağının qəbul edilməsi hadisəsinə təsadüf edilməyib. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından «Sovet Sosialist» sözlərinin çıxarılması hadisəsi də məhz Heydər Əliyev tərəfindən Sovetlər İttifaqının mövcudluğu şəraitində həyata keçirilmişdi. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi formatı da Heydər Əliyevin kamil siyasi düşüncəsinin hadisəsidir. Bundan başqa, Naxçıvan MR Ali Məclisi Sədrinin 16 dekabr 1991-ci il tarixli qərarı ilə Naxçıvanda “Dünya Azərbaycanlılarının Həmrəylik Günü”nün müəyyən olunması ilə dünyada azərbaycanlılar anlayışı meydana çıxmış və geniş bir hərəkatın əsası qoyulmuşdur”.

XX əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan Muxtar Respublikasının işğal olunmaqdan xilas edilməsi, ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılması Heydər Əliyevin tarixi xidmətlərindən biri” olduğunu, Müstəqil Azərbaycanın taleyində xüsusi əhəmiyyətə malik olan Yeni Azərbaycan Partiyasının da Heydər Əliyev tərəfindən 21 noyabr 1992-ci ildə Naxçıvanda yaradılması ölkəmizin milli istiqlalında böyük öndərin həyatı və fəaliyyətinin Naxçıvan dövrünün müstəsna dərəcədə əhəmiyyətli olduğunu aşkar şəkildə” nəzərə çarpdırdığını söyləyir: “XX əsrin 90-cı illərinin əvvəllərinin Azərbaycan hakimiyyətini təmsil edən AXCP Müsavat hökuməti böhran içində çabalayanda üç tərəfdən Ermənistan sərhəddi ilə əhatə olunan Naxçıvanda həyat inkişaf edir, cəmiyyət quruculuğu sahəsində qətiyyətli addımlar atılırdı. Azərbaycan xalqı belə cəsarətli, düşünülmüş və məqsədyönlü, ümummilli mənafelərə xidmət edən addımların ölkə miqyasında da atılmasını arzu və tələb edirdi”.

Görkəmli dövlət xadimi Heydər Əliyevin “çoxmilyonlu Azərbaycan xalqının böyük ümidlərinin dalğasında” ikinci dəfə yenidən hakimiyyətə gəlişini və bununla da ölkəmizdə milli qurtuluş hərəkatının bünövrəsinin qoyulduğunu, beləliklə də, 15 iyun 1993-cü il müstəqil Azərbaycan dövlətinin tarixinə “Milli Qurtuluş günü” kimi daxil olduğunu bildirən İsa Həbibbəyli Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin 03 oktyabr 1993-cü ildən başlayaraq qısa müddətdə ölkədə baş verən vətəndaş qarşıdurmasını aradan qaldırmaqla və cəmiyyət həyatının bütün sahələrini əhatə edən islahatları uğurla həyata keçirməklə genişmiqyaslı böhranı aradan qaldırdığını, dünyanın böyük dövlətləri ilə imzalanan neft müqavilələrinin tarixə «Əsrin müqaviləsi» kimi daxil olduğunu, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz boru xəttinin çəkilişinə dair verilən qərarların Azərbaycan xalqının iqtisadi böhrandan xilas edilməsində əhəmiyyətli hadisələrə çevrildiyini, dövlət hakimiyyətinin, ordu quruculuğunun möhkəmləndirildiyini təqdir edir: “Qətiyyətlə demək olar ki, Heydər Əliyev müstəqillik dövründə Azərbaycan dövlətçilik təsisatlarının milli əsaslar üzərində yaradılmasının böyük memarı idi. Ümumxalq səsverməsi ilə 12 noyabr 1995-ci ildə qəbul edilmiş müstəqillik dövrünün Azərbaycan Konstitusiyası tarixə Heydər Əliyev Konstitusiyası kimi daxil olmuşdur. Azərbaycanda təcrübəli mütəxəssislər, ziyalı siyasətçilər, tanınmış elm və mədəniyyət xadimləri əsasında milli parlamentarizmin formalaşdırılması da Heydər Əliyevin xidmətləri sırasında xüsusi yer tutur. Heydər Əliyevin siyasi iradəsi ilə ölkəmizdə ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi cəmiyyət həyatının inkişaf ritmlərinin ahəngdarlığının təmin edilməsində böyük rola malik hadisə idi. Beynəlxalq aləmdə Azərbaycan Respublikasının dünya ölkələri ilə normal əlaqələrinin qurulması, ölkənin xarici siyasət strategiyasının müəyyən olunması böyük dövlət xadiminin həm də mahir diplomatik bacarığının əməli ifadəsi idi. Geniş mənada Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda müstəqil dövlətçiliyin möhkəm əsaslarının yaradılması milli qurtuluşun məntiqi yekunu və qanunauyğun nəticəsi kimi mühüm tarixi hadisədir”.

Ümummilli lider Heydər Əliyevin dövlətçilik dərslərini mənimsəmiş, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi ölkəmizi Milli Qurtuluşdan yeni İntibaha çatdıran görkəmli dövlət xadimi kimi dəyərləndirir. Respublikamızda “ulu öndər tərəfindən müəyyən olunmuş dövlətçilik kursunun qorunub saxlanılmasının, möhkəmləndirilməsinin və yaradıcılıqla daim inkişaf etdirilməsinin təmin olunması”nın dövlət başçısı İlham Əliyevin adı ilə bağlı olan “tarixi xidmət” kimi dəyərləndirir: “Məhz bu proses əvvəlki on il ərzində əsası qoyulmuş, möhkəm təməlləri atılmış böyük layihələrin uğurla tamamlanmasına, həmin zəmində yeni və daha möhtəşəm quruculuq proqramlarının hazırlanıb həyata keçirilməsinə şərait yaratmışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan regionlarının inkişafı, qeyri-neft sektorunun, turizmin inkişaf etdirilməsi və Bakı ətrafı qəsəbələrin yenidən qurulması proqramlarının ardıcıl olaraq gerçəkləşdirilməsi ölkəmizin simasını tanınmaz dərəcədə dəyişdirmişdir. Aparılan məqsədyönlü və möhtəşəm quruculuq prosesi paytaxtımız Bakını dünyanın müasir şəhərləri sırasına çıxarmışdır. Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqeləri daha da genişlənmiş və möhkəmləndirilmiş, ölkəmizin tərəfdaşları və dostları çoxalmışdır. Bakı-Tbilisi-Qars dəmir yolu Avrasiya Dəmir İpək Yolu ünvanı qazanmışdır. Azərbaycanın böyük intibah prosesləri üçün zəruri olan tranzit ölkəyə çevrilməsi bu qədim və həmişə cavan diyarda siyasi düşüncələrin, elmi fikirlərin, mədəniyyətlərin, dini baxışların dialoqunun baş tutmasını şərtləndirmişdir. Ölkəmizdə azərbaycançılıq məfkurəsi dərinləşmiş, milli ideologiya formalaşdırılmışdır. Milli mədəniyyətimiz, elmimiz və ədəbiyyatımız dünyada tanınmış və geniş təbliğ edilmişdir. Ölkə Prezidentinin Azərbaycan Milli Elmlər Akademiyasının, muzeylərin, teatrların və məktəblərin, səhiyyə müəssisələrinin yenidən qurulması, inkişaf etdirilməsi istiqamətindəki ardıcıl fəaliyyəti xalqın mənəvi varlığı və milli kimliyi ilə sıx bağlı olan bu sahələrin sıçrayışlı inkişafına təkan vermişdir. Ölkədə milli və bəşəri dəyərləri özündə cəmləşdirən yeni ziyalı nəsil yetişib ərsəyə gəlmişdir. Bütün bunlara görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev coğrafi ərazi etibarilə kiçik, strateji əhəmiyyətinə və iqtisadi imkanlarına görə güclü bir ölkənin böyük lideri, yeni dünya siyasətinin cəlbedici simalarından biri kimi dünyanın diqqət mərkəzində dayanır”.

Prezident İlham Əliyevin “Geniş dünyagörüş, analitik təfəkkür, problemlərin həllinə çoxaspektli yanaşma, Azərbaycan idealına dərin sədaqət, inteqrasiya proseslərinin tənzimlənməsinə milli mövqedən baxış” kimi yüksək keyfiyyətlər onu xalqına və dünyaya sevdirən əsas xarakterik xüsusiyyətlər kimi təqdir edilir. Azərbaycan dövləti onun rəhbərliyi ilə “milli istiqlalını bu böyük enerjinin və ilhamın gücü ilə inkişaf etdirmək yollarında ciddi uğurlara” imza atdığını bildirən İsa Həbibbəyli Müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasının da Milli Qurtuluşun işığında böyük və şərəfli yol keçməkdə olduğunu, ölkə rəhbərliyinin müəyyən etdiyi siyasətin zəminində Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun məqsədyönlü rəhbərliyi ilə ardıcıl olaraq həyata keçirilən “genişmiqyaslı layihələr əsasında regionda davamlı milli ənənələrin qorunub saxlanılması şərti ilə” Muxtar Respublikanın əsaslı şəkildə yenidən qurulduğunu söyləyir.

# DÖVLƏTÇİLİK TƏLİMİ

Naxçıvan Muxtar Respublikasını Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əlaqələndirən yolları "dünya standartlarının yeni örnəkləri" kimi dəyərləndirir: "Qədimlik və müasirliyin işığında qurulub tikilmiş Naxçıvan şəhəri XXI əsrin intibah şəhərinin bənzərsiz simasını özündə cəmləşdirir. Ucqar dağ kəndlərindən rayon mərkəzlərinədək hər yerdə gedən genişmiqyaslı quruculuq prosesləri məmləkətimizin müasir tipli abad bir regionunun yaradılması ilə nəticələnmişdir. Naxçıvan Muxtar Respublikası ölkəmizin yeni tipli məktəblərə, yeni texnologiya ilə təchiz olunmuş işlək sənaye müəssisələrinə, hər qarış torpağı əkilib-becərilən kənd təsərrüfatına malik inkişaf etmiş regionudur. Milli-tarixi ənənələrin yaşadılmasına və inkişaf etdirilməsinə də qədim Naxçıvan özünün töhfələrini verməkdə davam edir. Naxçıvanda Ali Məclis Sədrinin xüsusi sərəncamları ilə keçirilən beynəlxalq simpoziumlarda Nuh dövrünün ilk insan məskənlərindən, ilkin şəhərsalmadan sonrakı dövrlərin tarixi nailiyyətlərinə, siyasi-ədəbi və maarifçi şəxsiyyətlərinə qədər ümummilli məsələləri əhatə edən problemlərin müzakirəsi geniş mənada ölkəmizin tarixinin, mədəni inkişafının öyrənilməsinə qiymətli əlavələrdir".

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin və Naxçıvan Dövlət Universitetinin sürətlə inkişaf etdirilməsi sahəsində həyata keçirilən məqsədyönlü tədbirlərin Muxtar Respublikanın Azərbaycanın əsas ziyalı mərkəzlərindən biri səviyyəsində inkişaf etdirilməsinə münbit şərait yaratdığını, qonşu dövlətlərlə əlaqələr sahəsində qazanılmış nailiyyətlərin Naxçıvanın Respublikamızın "beynəlxalq əlaqələrinin genişləndirilməsinə və daha da möhkəmləndirilməsinə xidmətinin əməli ifadəsi" kimi dəyərləndirir.

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında olan zaman həyata keçirdiyi böyük xilaskarlıq missiyasını 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Milli Məclisinin Sədri seçilməsi ilə ölkə miqyasında ardıcıllıqla və qətiyyətlə yerinə yetirməyə başlaması, məhz Heydər Əliyevin apardığı məqsədyönlü və qətiyyətli mübarizənin nəticəsində Gəncə qiyamının yatırılması, Talış Muğan Respublikasının tərksilah edilib ləğv olunması, Vətəndaş müharibəsinin dayandırılması, qardaş qırğınının aradan qaldırılması, ölkə vətəndaşlarında olan qanunsuz silahların yığışdırılması, silahlı dəstələrin tərksilah edilməsi, dövlət çevrilişi cəhdlərinin qətiyyətlə aradan qaldırılması, Ordu quruculuğu prosesinin sürətləndirilməsi, "beləliklə, sözün əsl mənasında müstəqil Azərbayan dövlətinin parçalanmaqdan xilas edilməsi, görkəmli dövlət xadimi Heydər Əliyevin böyük xidmətləri kimi dəyərləndirilir: "Həqiqətən, 15 iyun 1993-cü il hadisəsi ilə Azərbaycanda böyük qurtuluş baş vermişdir. Ümummilli lider Heydər Əliyev Azərbaycanda Böyük qurtuluşun banisidir. Böyük Qurtuluş ölkəmizin xilasının etibarlı təminatı və möhkəm təməlidir. Əslində Azərbaycanda müstəqil dövlətin böyük təməlləri Böyük Qurtuluşla atılmışdır. Böyük Qurtuluş müstəqil Azərbaycanın böyük dayağıdır. Heydər Əliyevin müstəqil dövlətçilik təliminin həm başlanğıc mərhələdəki mübarizələri, həm də gələcək böyük mübarizələr üçün ilhamverici və hərəkətverici qüvvəsi Böyük Qurtuluşdan ibarətdir.

Böyük Qurtuluş isə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana Böyük Qayıdışından doğmuşdur. Vətənə Böyük Qayıdış ölkənin xilasının siyasi-ideoloji əsasından, mükəmməl təcrübələrindən, Böyük Qurtuluş isə xilaskarlıq hərəkatının xalq və dövlət səviyyəsində geniş miqyasda, qətiyyətlə və ardıcıllıqla həyata keçirilməsindən yoğrulmuşdur. Böyük Qayıdış Böyük Qurtuluşun mükəmməl laboratoriyasıdır. Böyük Qurtuluş isə milli dövlətçilik təliminin startıdır. Ona görə də haqlı olaraq 15 iyun "Böyük Qurtuluş günü", həm də "Milli Qurtuluş günü" kimi qeyd olunur".

İnkişaf etmiş müstəqil Azərbaycanı "Böyük Qayıdışın və Milli Qurtuluşun böyük bəhrəsi" adlandırır. Bu gün müstəqil Azərbaycanın "Böyük Quruculuq ölkəsi" olması ilə qürur duyan İsa Həbibbəyli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "düşünülmüş, məqsədyönlü, ardıcıl fəaliyyəti ilə" özünün yüksək inkişaf səviyyəsinə görə ərazi etibarilə kiçik Azərbaycanın dünyanın böyük dövlətlərinin cərgəsinə çıxarıldığını, Transqafqaz əhəmiyyətli bütün böyük layihələrin demək olar ki, hamısının əsas müəllifi, baş memarı Azərbaycan olduğunu, iştirakçıların "bizim müttəfiqlərimiz, dostlarımız, tərəfdarlarımız" olduğunu, dövlət başçısı səviyyəsində beynəlxalq miqyasda həyata keçirilən və Azərbaycanda cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı islahatların, kompleks proqramların əsasında müstəqil Azərbaycan dövlətinin tərəfdarlarının artdığını, beynəlxalq nüfuzunun çox yüksəldiyini təqdir edir: "Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü seçilməsi Böyük Qayıdışın və Milli Qurtuluşun böyük təntənəsidir. Geniş mənada bütün yönləri ilə inkişaf etmiş Azərbaycan dövləti Böyük Qurtuluşdan doğan müstəqil ölkədir. Azərbaycanın tərkibində xüsusi inkişaf yolu keçmiş Naxçıvan Muxtar Respublikası Böyük Qayıdışın vətəni, Böyük Qurtuluşun etibarlı dayağıdır. Böyük Qurtuluşdan Azərbaycan Respublikasının böyük gələcəyinə günəş doğur". Bütövlükdə Azərbaycan Respublikasını ulu öndər, görkəmli dövlət xadimi, Milli Qurtuluşun banisi, böyük xilaskarlıq missiyasını bacarıqla həyata keçirmiş Heydər Əliyevin müstəqillik və milli dövlətçilik ideyalarını dünyada gedən proseslərə, ölkənin reallıqlarına uyğun şəkildə yaradıcılıqla inkişaf etdirərək hazırda böyük sabahlara doğru qətiyyətlə" addımladığını bildirir.

Milli qurtuluşdan başlanan yolların isə böyüdüyünü, genişləndiyini və sürətlə inkişaf etdiyini bildirən İsa Həbibbəyli Milli Qurtuluş – milli dirçəlişin möhkəm və etibarlı bünövrəsi kimi böyük gələcəyə yol açdığını vurğulayır. Bu mənada Milli Qurtuluş – müstəqil Azərbaycanın milli oyanışının doğan günəşidir. İnkişaf etmiş müstəqil Azərbaycan Milli Qurtuluşun parlaq nümunəsidir", – deyir.

Akademik İsa Həbibbəyli burada milli lider Heydər Əliyevin böyük dövlətçilik fəaliyyətini – həm sovet dönəmində, həm də sovet dövləti parçalandıqdan sonra gərgin bir tarixi şərait yaşamış, parçalanmaq, məhv olmaq təhlükəsi qarşısında qalan Azərbaycan xalqının birliyini, ərazi bütövlüyünün, vətəndaş müharibəsinin qarşısının alınması, ölkənin vahid hakimiyyət altında bərqərar olması yolunda böyük xidmətlərə imza atması, ölkəmizi beynəlxaq səviyyədə inkişaf etmiş ölkələr sırasına çıxarmaq üçün apardığı həm daxili, həm xarici siyasət sahəsində böyük siyasi imkanlara malik bir səriştəli dövlət xadimi kimi rolunu dəyərləndirir. Onun böyük proqramının həm Naxçıvan Muxtar Respublikasında olduğu zamanı, həm də ümumilikdə Azərbaycan dövlətinin inkişafında böyük xidmətlərini gündəmə gətirir. 90 illik ömrünün 60 ilinə qədərini vətənə xidmətə sərf edən ümummilli liderin 40 illik dövlətçilik fəaliyyətinin nəticəsi olan azad, demokratik, müstəqil, inkişaf etmiş Azərbaycanı "onun şah əsəri kimi" təqdim etməkdə haqlıdır. Akademik İsa Həbibbəyli



"Heydər Əliyevin azərbaycançılıq siyasəti: ədəbi düşüncədən dövlət ideologiyası səviyyəsinə" məqaləsində azərbaycançılıq siyasətinin mahiyyəti məsələlərinə yer verir. Heydər Əliyevin Azərbaycan tarixində ilk dəfə olaraq ölkəmizdə azərbaycançılıq ideyasını dövlətin siyasi ideologiyası səviyyəsinə qaldırdığını söyləyir.

Akademik Ramiz Mehdiyev yazır: "Dünyada müstəqil Azərbaycan dövləti vardır. Azərbaycan xalqı vardır. Onun öz mükəmməl dili, zəngin milli mədəniyyəti, özünəməxsus adət-ənənələri vardır. Bunları qoruyub saxlamaq, inkişaf etdirmək və gələcək nəsillərə ərməğan etmək müqəddəs bir vəzifədir. Bu gün bu vəzifənin həyata keçirilməsi Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyevin sayəsində Azərbaycanda dövlətçilik özünü təkcə siyasi-hüquqi hadisə kimi deyil, həm də konkret milli-mənəvi gerçəkliyin təsbit olunması kimi göstərir. Bu gerçəkliyin milli ideologiya səviyyəsində təzahürü isə azərbaycançılıq təlimidir" -

Azərbaycan və azərbaycançılıq anlayışlarına aydınlıq gətirir, bu anlayışların qədim tarixə malik olduğunu, uzun əsrlər boyu yalnız coğrafi yer adı kimi işlədildiyini, son yüzillikdən bir qədər artıq dövrdə, həm də milli ideya olaraq formalaşmaqda olduğunu yazır. Azərbaycançılığın dövlət siyasətində milli ideologiyaya çevrilməsini, müstəqil dövlət quruculuğu ilə əlaqələndirilməsini Heydər Əliyevin Azərbaycan dövləti və xalqımız qarşısındakı böyük tarixi xidmətlərindən biri kimi dəyərləndirir. Fikrinin isbatı üçün məlum məsələlərə diqqəti yönəldir. Qədim tarixə malik olan Azərbaycanda milli məfkurə anlayışının XIX əsrdən etibarən yaranmağa başladığını, "Azərbaycançılığın məfkurəyə çevrilməsi cəmiyyətin inkişafı, xüsusən, maarifçiliyin yeni tarixi mərhələyə qədəm qoymasından və milli-mənəvi özünüdərk proseslərinin formalaşmasının sürətlənməsindən doğan bir göstərici" olduğunu, Azərbaycançılıq ideyasının yaranmasında xalqın özünün milli varlığını və ölkəsinin coğrafi ərazisini müəyyən etməsi zərurətinin mühüm rol oynamış olduğunu bildirən İsa Həbibbəyli bu prosesin bir neçə mərhələ üzrə formalaşıb inkişaf etdiyini yazır: "Dövrü mətbuatda azərbaycançılıq ideyasının meydana çıxması; ədəbiyyatda azərbaycançı düşüncənin inkişaf etdirilib dərinləşdirilməsi; böyük siyasətdə azərbaycançılığın milli dövlətin ideologiyası səviyyəsinə çatdırılması".

Müşahidələrə əsasən bildirir ki, XIX əsrə qədər Azərbaycan xalqının necə adlandırılması məsələsi elmi-ideoloji mühitin ciddi maraq dairəsində olmayıb. Azərbaycan adı qədim tarixə malik olsa da Azərbaycan dili, Azərbaycan xalqı, ümumiyyətlə, azərbaycançılıq məfkurəsi nisbətən sistemli şəkildə XIX əsrin ikinci yarısından etibarən formalaşmağa başlayıb.

Uzun əsrlər ərzində Azərbaycan ya geniş mənada ümumtürk məkanında dəyərləndirildiyini, daha çox isə aid olduğu dövlətin adı altında ifadə edildiyini, bu mənada Atabəylər, Ağqoyunlular, Şirvanşahlar, Səfəvilər və sair kimi dövlət adlarından hər biri mahiyyət etibarilə Azərbaycan anlayışına aid olsalar da Vətən və məfkurə mənasında Azərbaycan məfhumunu bütün tamlığı ilə ifadə etmək imkanlarına malik olmadığı, ona görə də mövcud proses ümumtürk anlayışından sonra müsəlman, daha sonra isə tatar məfhumlarını meydana çıxardığını, bu anlayışların bəlkə də Azərbaycanı "əritmək istəyən hərbi-siyasi qüvvələr, ümumi müsəlman doktrinalarını diqtə edən cərəyanlar" ortaya atdığını, Azərbaycanı xanlıqlara parçalanma zərurəti qarşısında qoymaq da təkcə daxili ziddiyyətlərlə bağlı olmayıb, həm də kənar təsiri ilə də əlaqədar olduğu qeyd edilməklə yanaşı, İsa Həbibbəyli bunun əksinə inkişafı təqdir edir: "Amma xoşbəxtlikdən əksinə proseslər də getməkdə idi. Parçalanmanın böyük fəlakətlərə apardığını dərk edən bəzi Azərbaycan xanlıqları nicat yolunun kənarlardan daxil axtarmaqdan daha çox ittifaqda olduğunu dərk etməyə başlamışdılar".

Alim bu fikirdədir ki, "azərbaycançılıq düşüncəsinin təməli tumurcuq şəklində olsa da bu zaman qoyulmuşdur. Ayrı-ayrı xanlıqların müttəfiqliyə, ittifaqa, birgə mübarizəyə doğru atmalı olduqları məcburi addımlar daxildə vahid vətən, heç olmazsa doğma ərazi, ana yurd anlayışlarının ilkin tezislərini doğurmaqda idi". İsa Həbibbəyli bu fikri də söyləyir ki, XIX əsrin birinci yarısında Rusiyanın işğalına qarşı olan əks reaksiya da ziyalı mühitində açıq ictimai mübarizə meydanı səviyyəsinə yüksəlməsə də milliləşmə prosesinə öz təsirini göstərməyə bilməzdi. Eyni zamanda, əvvəlki dövrlərlə müqayisədə xeyli dərəcədə üstün və fərqli səviyyədə gedən maarifçilik hərəkatı da Vətən və millət uğrunda mübarizəni yetişdirməkdə idi. Beləliklə, XIX əsrin ikinci yarısından daha konkret desək, 70-ci illərindən etibarən isə azərbaycançılıq məsələsi aktual bir problem kimi maarifçi mühitin gündəliyində özünə müəyyən yer tutmağa başlamışdır".

*(Davamı var)*